TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________ E.M.Ağayev

"12" aprel 2022-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**TONZİLOTREN A** tabletlər
TONSILOTREN® A

**Beynəlxalq patentləşdirilməmiş adı**: yoxdur.

**Tərkibi**
*Təsiredici maddə*: 1 tabletin (250 mq) tərkibində 12,5 mq atropin sulfat (Atropinum sulfuricum trit.) D5, 10 mq hepar sulfur (Hepar sulfuris trit.) D3, 50,0 mq kalium bixromat (Kalium bichromicum trit.) D4, 5,0 mq silisium dioksid (Silicea trit.) D2, 25,0 mq civə-2-yodid (Mercurius bijodatus trit.) D8 vardır.
*Köməkçi maddələr*: laktoza monohidrat, saxaroza, maqnezium stearat.

**Təsviri**
Yastı-silindrik formalı, iti qıraqlı, ağ və ya demək olar ki, ağ rəngli tabletlərdir; kiçik xalların mövcudluğu yolveriləndir.

**Farmakoterapevtik qrupu**
Homeopatik dərman preparatı.

**Farmakoloji xüsusiyyətləri**
Homeopatik müalicə xəstəliyin anlamına və dərman substansiyalarının istifadəsinə görə ənənəvi təbabətdən nəzərə çarpacaq dərəcədə fərqlənir. Homeopatik preparatlar orqanizmin fərdi qoruyucu mexanizmlərini stimullaşdırır və beləliklə, orqanizmin özünü müalicə edib sağaltmaq potensialını aktivləşdirir. Hər bir orqanizmin homeopatik dərman preparatlarına qarşı reaksiyası çox fərdidir. Bu səbəbdən, həmin preparatların dozadan asılı farmakoloji effektlərini, farmakodinamik və ya farmakokinetik xüsusiyyətlərini müəyyən etmək mümkün deyil.

**İstifadəsinə göstərişlər**
Kəskin tonzillit, xroniki və ya residivləşən kəskin tonzillit və badamcıqların ölçülərinin böyüməsi. Preparatın istifadəsi, badamcıqların cərrahi əməliyyat yolu ilə çıxarılmasından sonrakı sağalma prosesinin sürətləndirilməsi üçün göstərişdir.

**Əks göstərişlər**
Xroma, civəyə və ya preparatın tərkibinə daxil olan təsiredici maddələrdən və ya köməkçi maddələrdən hər hansı birinə qarşı məlum hiperhəssaslıq qeyd olunduğu hallarda, preparat istifadə edilməməlidir.
Qlükoza-qalaktoza malabsorbsiyası, laktaza çatışmazlığı.
Preparatın 2 yaşa qədər uşaqlarda istifadəsi əks göstərişdir.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Həkim pasiyentdə istənilən şəkər növlərinə qarşı dözümsüzlüyün mövcudluğunu müəyyən etdiyi halda, Tonzilotren A preparatının istifadəsinə başlamazdan əvvəl həkimlə məsləhətləşmək lazımdır.
Dərman preparatının tərkibinə laktoza və saxaroza daxildir. Bu səbəbdən, qalaktozaya qarşı dözümsüzlük, Lapp laktaza çatışmazlığı və ya qlükoza-qalaktoza malabsorbsiyası kimi nadir irsi

xəstəliklər qeyd olunan pasiyentlər göstərilən dərman preparatından istifadə etməməlidirlər. Bundan əlavə, preparatı həmçinin, fruktozaya qarşı dözümsüzlük və ya saxaroza-izomaltaza çatışmazlığı kimi nadir irsi problemlərlə üzləşən pasiyentlərdə istifadə etmək olmaz.
*Aşağıda göstərilən hallarda, həkimlə məsləhətləşmək tələb olunur*:
- ilk 2 gün müddətində aparılan müalicədən sonra kəskin vəziyyət simptomları yaxşılaşmadıqda və ya daha da pisləşdiyi hallarda;
- pasiyentdə əlavə şikayətlər, məsələn, bədən temperaturu 39°C-dən artıq yüksəldiyi halda.

Qalxanabənzər vəzi xəstəliklərindən əziyyət çəkən pasiyentlərə Tonzilotren A preparatının istifadəsinə başlamazdan əvvəl həkimlə məsləhətləşmək tövsiyə olunur.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Digər dərman preparatları ilə qarşılıqlı təsirləri barədə heç bir məlumat yoxdur. Homeopatik dərman preparatının istifadəsi ilə müalicə, digər dərman preparatlarının istifadəsini istisna etmir. Pasiyentlərə hazırda və ya az müddət əvvəl istifadə etdikləri və ya gələcəkdə istifadəsi nəzərdə tutulan digər dərman preparatlarının istifadəsi barədə həkimlə məsləhətləşmələri tövsiyə olunur.
*Qeyd*. Neqativ həyat vərdişləri faktorlarının mövcudluğu, məsələn, tütünün və ya alkoqolun istifadəsi, homeopatik dərman preparatlarının effektlərinə mənfi təsir göstərə bilər.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə Tonzilotren A preparatı yalnız, əvvəlcədən həkimlə məsləhətləşdikdən sonra istifadə edilə bilər.
Bütün digər dərman preparatları kimi, hamiləlik və laktasiya dövründə Tonzilotren A preparatı da fayda və risk nisbətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınaraq, istifadə edilməlidir.

**Nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Təsir göstərmir.

**İstifadə qaydası və dozası**
Preparatdan istifadə etdikdə, hər zaman bu içlik vərəqədə qeyd olunan göstərişlərə və ya həkimin və ya əczaçının təyinatlarına riayət etmək lazımdır. Preparatın düzgün istifadəsinə dair hər hansı şübhə meydana çıxdığı halda, həkimlə və ya əczaçı ilə məsləhətləşmək lazımdır.
*Dozalanma rejimi*
*Böyüklər*
*Kəskin vəziyyətlərdə* – simptomlar yüngülləşənə qədər, bir saatlıq intervallarla 1 tablet – lakin, gündə 12 tabletdən çox olmamaqla, istifadə etmək lazımdır. *Davamlı müalicə məqsədi ilə və ya xroniki vəziyyətlərdə* – gündə 3 dəfə 1-2 tablet istifadə edilməlidir.
*Pediatriyada istifadəsi*
*2 yaşdan 6 yaşa qədər uşaqlar*
*Kəskin vəziyyətlərdə və davamlı müalicə məqsədi ilə və ya xroniki vəziyyətlərdə* – gündə 3 dəfə 1 tablet istifadə edilməlidir.
*6 yaşdan 12 yaşa qədər uşaqlar*
*Kəskin vəziyyətlərdə* – simptomlar yaxşılaşana qədər, hər 2 saatdan bir 1 tablet – lakin, gündə 6 tabletdən çox olmamaqla, istifadə etmək lazımdır.
*Davamlı müalicə məqsədi ilə və ya xroniki vəziyyətlərdə* – gündə 3 dəfə 1 tablet istifadə edilməlidir.
*Yaşı 12 və daha yuxarı olan uşaqlar*
*Kəskin vəziyyətlərdə* – simptomlar yüngülləşənə qədər, bir saatlıq intervallarla 1 tablet – lakin, gündə 12 tabletdən çox olmamaqla, istifadə etmək lazımdır.
*Davamlı müalicə məqsədi ilə və ya xroniki vəziyyətlərdə* – gündə 3 dəfə 1-2 tablet istifadə edilməlidir.
*Badamcıqların ölçüləri böyüdükdə*, böyüklərə və uşaqlara preparat gündə 3 dəfə 1 tablet təyin olunur. Müalicənin 6-8 həftə müddətində davam etdirilməsi tövsiyə olunur.
Xroniki və residivləşən kəskin vəziyyətlərdə preparatı hər birinin davametmə müddəti 6-8 həftə olan bir neçə müalicə sikləri ilə istifadə etmək tövsiyə olunur.
*İstifadə qaydası*
Tabletlər ağız boşluğunda tədricən həll olmalıdır.
Kiçik yaşlı uşaqlar üçün tabletləri xırdalamaq və daha sonra, az miqdar suda həll etmək olar.

Preparatı qida qəbulundan ən azı yarım saat əvvəl və ya yarım saat sonra istifadə etmək lazımdır.

**Əlavə təsirləri**

Preparatın istifadəsi ilə əlaqəli əlavə təsirlər çox nadir hallarda (<1/10000) və ya məlum olmayan tezliklə (əldə olunan məlumatlar əsasında tezliyin qiymətləndirilməsi mümkün deyil) müşahidə oluna bilər: hiperhəssaslıq reaksiyaları, məsələn, dəri üzərində səpgilər, qaşınma. Belə hallarda preparatın istifadəsini dayandırmaq və həkimlə məsləhətləşmək lazımdır.

Ağız suyu ifrazı gücləndiyi halda, preparatın dozasını aşağı salmaq və ya istifadəsini dayandırmaq tövsiyə olunur.

*Qeyd*. Homeopatik preparatların istifadəsi ilə əlaqəli mövcud şikayətlər müvəqqəti pisləşə bilər (ilkin homeopatik kəskinləşmə). Göstərilən hallarda pasiyentlərə preparatın istifadəsini dayandırmaq və həkimlə məsləhətləşmək tövsiyə olunur.

**Doza həddinin aşılması**

Doza həddinin aşılması halları qeydə alınmamışdır.

**Buraxılış forması**

20 tablet blisterdə. 2 blister içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**

25°C-dən yuxarı olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**

5 il.

Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**

Reseptsiz buraxılır.

**İstehsalçı**

Dr. Gustav Klein GmbH & Co. KG,
Ştaynenfeld 3, 77736 Sel am Harmersbax, Almaniya.

**Qeydiyyat vəsiqəsinin sahibi**

Alpen Pharma GmbH,
Ştaynenfeld 3, 77736 Sell am Harmersbax,
Almaniya.